# İGİDLİYİN POVESTİ

*(Əvvəli ötən sayımızda)*

Şəddad Cəfərovun "İgidliyin povesti" əsərini həyəcansız oxumaq, qəhrəman eloğlumuz Baloğlan Rüstəmovun taleyini sakit oxu ilə müşayiət mümkün deyil. Çünki bu qəhrəmanın döyüş yolunda onun azərbaycanlı xarakteri çox aydın görünür. İgidliyi, mərdliyi, mübarizliyi ilə Azərbaycan xalqının genetik cəngavərlik obrazı olduğunu təsdiq edir. Əsər haqqında qeydlərimizi davam etdirməzdən əvvəl Azərbaycan mühitindəki bugünkü həyəcanların mahiyyəti haqqında bir neçə söz deməyi vacib bilirik. Çünki biz təkrarsız zaman dövrəsində yaşayırıq. Belə anlar hər bir millətin taleyində əsrlər içərisində nadir hadisədir.

Maşınların sirenaları, gənclərin Qarabağ hayqırışları, ay-ulduzlu Azərbaycan və Türkiyə bayraqları... coşqulu nəğmələr, şüarlar , Ali Baş Komandanın ünvanına, Türkiyə liderinin adına yaraşan alqışlar, nəğmələr... bütün bunlar Azərbaycan ruhunun döyüşkən, qürurlu, milli varlığın təzahür məqamlarıdır.

Çox qədim zamanlardan qalma bir məsəl var: "Kənardan baxana döyüş asan gələr". Təkcə elə bu məsəlin özündə xalq düşüncəsinin müharibə haqqında qənaəti əksini tapıb. Xüsusilə, müharibəni görmüş, müharibənin dəhşətlərini öz varlığında yaşadan insanlar yaxşı bilirlər ki, ölüm-dirim savaşında insan həyatı anların gətirdiyi qismətdən asılıdır. Hələ o başqa məsələdir ki, Kabardin Balkar şairi Qaysın Quluyev demiş: "cəbhədə atılan hər bir güllə ana ürəyinə dəyir". Bu gün Qarabağ savaşının ən şöhrətli məqamlarını yaşayırıq. Qüdrətli Azərbaycan ordusunun qalib yürüşü nəhayət özünü Şuşada da təsdiq etdi. Azərbaycan Dövlət Bayrağı gününün bayramını coşqu hissləri ilə yaşadı. Və nəhayət, müharibənin dayandırılması ilə nəticələnən ümumi razılaşma bəyannatı imzalandı. Paytaxt küçələrində, Azərbaycanın böyük şəhərlərində Azərbaycanın şəksiz böyük üstünlüyü ilə dayanan müharibənin qələbə sevinclərini yaşayır.

Ancaq, bu müharibə də birinci olmadığı kimi sonuncu da deyil. Deməli, müharibə mövzusunda yazmaq missiyasını yazıçılar, publisistlər, jurnalistlər, Əli qələm tutan siyasətçilər, yenə özlərində saxlayırlar.

Müharibə haqqında yazı yaddaş naminə davam etdirilməlidir. Müharibə qəhrəmanlarının taleyi yeni nəsillər üçün örnək olaraq zaman-zaman yaşamalıdır.

Baloğlan Rüstəmovun Döyüş yolu isə bu gün Qarabağda vuruşanların cəngavərlik savaşının əzəlidir.

Zamana qayıdış çətin olur. Ancaq ayrı-ayrı qəhrəmanların taleyinə qayıdış elə zamana qayıdış kimi qavranıla bilər.

Baloğlan Rüstəmovun döyüş yolunu təsvir edən müəllif onun birdən-birə qəhrəman olmadığını, qəhrəmanlığın göydən düşmə olmadığını göstərmək üçün öz oxucusunu sanki bələdçi olaraq qəhrəmanın yanına aparır, özü ilə birgə döyüş nöqtələrindən, döyüşə hazırlıq məqamlarından keçirir: "Döyüşçü-desantçılar günü-gündən gərgin döyüş təcrübəsini təkmilləşdirirdilər.Birdən fasiləsiz olaraq starşina və növbətçinin - "Ayağa qalxın, Həyəcan!, Həyəcan!" - deyən qışqırığı eşidildi.Yenicə kazarmaya gəlmiş Baloğlan Rüstəmov da yoldaşları ilə birgə kazarmanın yanında vurnuxaraq ora-bura qaçırdı. Əsgərlər tələsik halda paltarlarını geyindilər.

Lənətə gəlmiş yağış da bir yandan dayanmaq bilmirdi, əksinə, daha da güclənirdi. Artıq vəziyyət məlum idi. Soyuq və rütubhətli bir gecə idi, külək əsirdi. Elə bu zaman "Marş" komandası verildi. Döyüşçülər ayaqlarını yumşaq palçığa basa-basa yeriyirdilər. Yenə dəbu marşlar... marşlar... qaranlıqda, nə küləkli havada yenə də marş... marş, yenə də marş...Bölük daha nizami addımlarla hərəkət etməyə başlamışdı. Bölük komandiri onlara mahnı oxumaq komandası verdi. Əsgərlər mahnı oxuya-oxuya hərəkət edirdilər. Komandir onları şən nəğmələr oxumağa həvəsləndirdiyi üçün, səslər indi daha aydın və gur eşidilirdi". Göründüyü kimi əsgər savaşa hazırlıq məqamında hələ düşmənin qənşərində olmadığı anlarda iradəsini möhkəmləndirir, gücünü səfərbər etmək yolu keçir. Təkcə çətinliklər deyil, təbiət də əsgərin iradəsinə qarşı savaşır. Əsgər öz gücünü yenilməz iradəsinin sayəsində ona görə səfərbər edir ki, onu gözləyən savaşda kimliyini təsdiq edə bilsin, axı hər bir insanın gücünün də həddihüdudu var. Əsgər çox vaxt təbiətin sərt üzü ilə qarşılaşır. Dizə qədər lıqqanın, palçığın içində hərəkət etməli olur, belə məqamlarda zəif iradəli insanlar nəinki təbiətə, düşmənə, hətta taleyə, qismətə də nifrət edir. Amma qoçaqlar, igidlər savaş meydanında qələbə qazanmaq üçün bu çətinliklərin bir təcrübə olduğunu da dərk edir. Əslində müəllif Şəddad Cəfərov qəhrəmanını belə gərgin məqamlarda sınağa çəkir, onun dözümünü, gücünü öz oxucularına nümunə kimi göstərir. Hər kəsə aydın olur ki, tarixin yaddaşında məhz çətinliklərə qalib gələn, iradəsinə sahib olan savaşların qalibi olan insanlar əbədilik qazana bilirlər.

Baloğlan Rüstəmov da yazıçının təqdim etdiyi kimi hərbin insan iradəsini sınağa çəkdiyi məqamlarda formalaşa bilir. Sanki Şəddad Cəfərov bu günün döyüşçüsünə babaların yolunu sənət işığı ilə nurlandıraraq göstərir: "İndi adama elə gəlirdi ki, bu notların altında palçıq palçıq kimi, su da su kimi deyildi. Artıq pis əhval-ruhiyyədən əsər-əlamət qalmamışdı. Bax buradaca dayanmalı olacağıq, - deyə bölük başçısı səsləndi. O, döyüşlərə özləri üçün yataq yeri qazmağı tapşırdı və bildirdi ki, bu gündən sonra ancaq belə "mənzillərdə" yaşamalı olacaqlar. Çünki daha belə mühitdə yaşamağa alışmaq vaxtıdır. Sıravi döyüşçülər əllərinə bel alaraq yeri qazmağa başladılar. Torpaqələ gələn və nəm olduğu üçün, belin ucu torpağa asan sancılırdı. Hava tədricən qaralmağa başlayırdı. Yumurta sarısına oxşayan saralmış günəş buludlar arasında əriyib gedirdi. Gərgin təlimlər başladı. Və səhərə qədər davam etdi. Siyasi rəhbər Rüstəmovu kabinetinə çağıraraq onunla söhbət etdi. O, Baloğlan Rüstəmova harada anadan olduğunu, böyüdüyünü, valideynlərinin harada olduğunu və bu briqadaya necə gəlib düşdüyünü, məktəbin ictimai həyatında necə iştirak etdiyi barədə hərtərəfli suallar verdi. Baloğlan bu söhbətlərin nəyə görə aparıldığını başa düşmürdü. Ona görə də verilən sual-cavablardan ehtiyatlanır, hətta əsəbləşirdi də. Bunlar nəyə lazım idi?

-Mən sizi, yoldaş Rüstəmov, ona görə çağırdım ki, birincisi, yaxından tanış olaq, ikincisi, siz şair Səməd Vurğunun şeirindən şəxsi heyətə oxuya bilərsinizmi? - deyə soruşdu. - Mənə döyüşçülər sizin bu şairin şeirlərindən onlara oxuduğunuzu deyiblər. Rüstəmov qeyri-adi bir küləkli günü xatırladı. Sanki bu dünən olmuşdu. Əsgər klubundakı səhnəni, zalda əyləşən bölük yoldaşlarının yadına saldı. Buraya toplaşan çoxlu sayda insanın sakitlikdə eşidilən nəfəslərini, dediyi şeirin qaynar satirlərinin sakitlikdə necə dinlənildiyini xatırladı.Təlimlər öz ahəngi ilə gedirdi. Döyüşçülər və Rüstəmov gecə-gündüz yorulmaq bilmədən hərb elmini öyrənirdilər. Onlar döyüşə əzmlə hazırlaşırdılar". Təqdim olunan parçada xüsusi diqqətə çəkməli məqamlar az deyil, bəzən döyüşçünün ruhunu sənətin, poeziyanın coşqu ilə söylənən bir nitqin gücü ilə də səfərbər etmək olar. Şübhəsiz burada Səməd Vurğunun adı təsadüfi xatırlanmır. Çünki Səməd Vurğun öz möhtəşəm poeziyası ilə həmişə əsgərlərimizin yanında olub. Hələ müharibə başlanan günü böyük sənətkar yazmışdı: " Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən". Baloğlan Rüstəmov savadlı bir gənc kimi Vətən sevdalı şairin şeirlərini əzbər bilirdi. Və yeri



gələndə döyüşçü yoldaşlarının mənəvi yüksəlişini ana dilimizin şirinliyi, Səməd Vurğun poeziyasının ecazkarlığı ilə təmin etməyi bacarırdı. Beləliklə, biz "İgidliyin povesti"ndə möhtəşəm döyüş yolu keçmiş qəhrəmanın döyüş cəngavəri kimi formalaşma, yetişmə yolunu görür və duyuruq.

Şəddad Cəfərov Baloğlan Rüstəmovun kəşfiyyatçı-desantçı kimi hazırlıq yolunu birəl-birəl izləyir. Sanki o bir müəllif olaraq bugünkü döyüşçüyə təlqin edir ki, böyük sərkərdələr demiş "təlimin çətinliyi döyüşün asanlığını təmin edir" hökmü əbədi düstur həqiqəti kimi yaddan çıxarılmamalıdır. Baloğlan Rüstəmov paraşütdən istifadə, hündürlükdən tullanma təlimini uğurla keçir. İlk anlarda tərəddüd etsə də, bu hisslər tez ötüb keçir. Onun öz iradəsinə sahib olması yoldaşlarına da təsirsiz ötüşmür. Yazıçı bu məqamları qəhrəmanın unudulmayan tərcümeyi-halında həssas məqamlar kimi diqqətə çəkir: "Cəbhədə vəziyyət gərgin idi. faşistlər bir-birinin ardınca şəhərləri ələ keçirirdilər. Diktor Yuri Levitanın sağlam səsi ilə cəbhədə düşmənin çoxlu sayda itki verməsi haqqında verilən məlumatları dinləyərək, hər bir döyüşçü, həmçinin Rüstəmovun özü də xəyalən də olsa, cəbhə xəttini görürdü. Səhər saat altıda radio ilə son xəbərlər veriləndə elə bir qüvvə yox idi ki, döyüşçüləri kazarmada saxlaya bilsin. Səhər idmanına qədər bütün döyüşçülər reproduktorun - "diqqət, diqqət, danışır Moskva, sabahınız xeyir, hörmətli radio dinləyiciləri. Sovet informasiya bürosundan Ali Baş Komandanın məlumatı..." - sözlərini eşitmək üçün bura toplaşırdılar. Rüstəmov və döyüşçülər dərslərini davam etdirməkdə idilər. Artıq onlar bütün silahların "dilini" mükəmməl öyrənmişdilər. Gözübağlı tüfəngi sökub-yığırdılar. Qumbara, pulemyot, paraşütlə davranma qaydaları ilə ətraflı tanış olmuşdular. Yerə enmə texnikasını mənimsəmiş, əvvəlcə taxtadan düzəldilmiş hündürlükdən, sonra isə təyyarədən tullanmaq kimi vərdişlərə yiyələnmiş, nizamnamələri əzbərdən öyrənmişdilər. Artıq fiziki cəhətdən döyüşə hazır idilər". Şəddad Cəfərovun "İgidliyin povesti" əsərini bu günümüzün Qarabağ savaşındakı qəhrəmanları öz tərcümeyi-halları kimi oxuya bilərlər. Doğrudur, bu savaşda desant-paraşüt məsələləri arxa planda olsa da, dromlar savaşı diqqəti daha çox cəlb etsə də, döyüşən ordunun əsgəri üçün hisslər, duyğular bütün zamanlarda bir-birinə bənzəyir.

Müəllif əsərində tez-tez Yuri Levitanın möhtəşəm səsini yada salır. Biz isə əsəri oxuduqca Ali Baş Komandanımızın öz səsini eşidirik. Çünki Ali Baş Komandan 44 günlük müharibə dövrünü əsgərlərimizlə birgə keçdi. O, özünün qüdrətli çıxışları ilə əsgərlərimizlə bir yerdəydi, əsgərlərimizlə birgə vuruşurdu. Yağı düşmənə qarşı Ali Baş Komandan qətiyyəti və iradəsi, informasiya zənginliyi ilə vuruşurdu. Bu anoloji mühiti "İgidliyin povesti" əsərində əsgərlərin Yuri Levitanın səsini dinləməyi ilə uğurlu müqayisəyə çəkə bilərik. Sözün bütün anlamlarında döyüş həyəcanlarını biz həyatda necə yaşayırıqsa, Şəddad Cəfərovun "İgidliyin povesti" əsərində də eləcə görə bilirik.

Baloğlan Rüstəmov "İgidliyin povesti" əsərində yazıçının təqdim etdiyi kimi təyyarə ilə səma ucalığına qalxır. O, təkcə təyyarə ilə qalxmır, həm də ruhən, mənən ucalır. İndi o ucalıqdan savaş üçün, yağıya öz həddini göstərmək üçün yenidən torpağa dönüş etməlidir. Bu dönüşün uğurlu təsvirlərini oxucuya da həmin həssaslıqla, yazıçı məntiqi ilə çatdırmaq müəllif kimi Şəddad Cəfərova nəsib olur: "Nəhayət, paraşütdən tullanmaq vaxtı gəlib çatdı. Rüstəmov xidmət etdiyi bölüklə birlikdə pilləkənlə təyyarəyə qalxdı. Hər birində içində paraşüt olan çanta var idi. Hazırlıqlı döyüşçülər yerlərini tutaraq kəmərlərini bərkitdilər. Təyyarənin içərisində hərə özünə yer taparaq oturdu. İçəri çox soyuq və darısqal idi. Döyüşçülər narahatçılıq keçirirdilər. Şaxta adamın üzünə vururdu. Hətta yarıqaranlıqda Rüstəmov və yoldaşlarının şaxtadan qızarmış yanaqları görsənirdi. Ətrafa adət olunmamış sakitlik çökmüşdü. Motorun gurultusu eşidildi. Təyyərə tez-tez təkan verdiyi üçün döyüşçülər atılırdılar. Nəhayət, təyyarə havaya qalxdı. Paraşüt işi üzrə təlimatçı kabinədən çıxdı. Boyu az qala iki metrə çatırdı. O, heyətə təyyarədən çıxmazdan qabaq halqanı qoparmağı və yerə enərkən ayaqları birlikdə saxlamağı bir daha xatırlatdı". Şəddad Cəfərov tərənnüm etdiyi qəhrəmanı sevən yazıçıdır. Onun İkinci Dünya Savaşı qəhrəmanlarına həsr olunmuş hər bir əsəri sadəcə dövrün xronikası deyil, zamanın müharibə kitabı kimi, yaddaş kitabı kimi yazılıb.

"İgidliyin povesti" əsəri ilə Şəddad Cəfərov öz oxucusunu da xaraktercə tərbiyə edir. Dövrümüzün hər bir gəncinə alovlu vətənpərvərlik hisləri aşılayır.

*(Davamı var)*